# SAHİL VƏ ÜMİD QƏSƏBƏLƏRİNİN MƏKTƏBLƏRİNDƏ BİZNESİN ƏLİFBASI ÖYRƏDİLƏCƏK

BAKI/05.11.10/TURAN: Qaradağ Sement ASC və Junior Achievement Azərbaycan təşkilatı, Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə əməkdaşlıq çərçivəsində, Bakının Sahil və Ümid qəsəbələrində "Məktəblərdə Biznesin Tədrisi Proqramı"nın həyata keçirilməsinə başlayıblar. Oktyabr ayından başlanan və bir il davam edəcək proqramın vasitəsilə 940 yuxarı sinif şagirdi iqtisadiyyat və biznes sahəsində tədris alaraq maariflənəcək, 6 müəllimə sahibkarlığın əsasları, maliyyə savadı və iqtisadiyyat fənninin tədrisi üzrə təlim keçiriləcək.

Pilot proqramda Sahil və Ümid qəsəbələrindəki 6 orta və internat məktəb iştirak edəcək. Proqramın gedişatında məktəblərə 1000 ədəd "İqtisadiyyat" dərsliyi paylanılacaq.

"Məktəblərdə Biznesin Tədrisi Proqramı"nın təklif etdiyi təcrübi fəaliyyətlər və təlimlər vasitəsilə şagirdlər mikro-, makro- və beynəlxalq iqtisadiyyatın əsas prinsiplərini öyrənəcək, biznes ideyalarını gerçəkləşdirmək üçün məktəb əsaslı "şirkətlər" yaradacaq, biznesin modelləşdirilməsi və idarəetməsi üzrə öz həmyaşıdları ilə yarışacaqlar.

"Qaradağ Sement" ASC Azərbaycanda ən iri klinker və sement istehsalçısıdır. Zavod 1999-cu ildə özəlləşdirilmişdir. Hazırda onun səhmlərinin böyük hissəsi sement, hörgü materialları, beton və digər inşaat xidmətlərinin təchizatı sahəsində dünyanın aparıcı şirkətlərindən biri olan "Holcim Group"a məxsusdur. "Holcim Group" dünyanın 70-dən artıq ölkəsinin müəssisələrində əsas və ya kiçik pay sahibi kimi iştirak edir. "Qaradağ Sement" Azərbaycan bazarında möhkəm mövqeyə malikdir.

Junior Achievement Azərbaycan (JAA) məktəblilərə azad sahibkarlıq, işə hazırlıq və maliyyə savadını tədris edən, biznes tədrisi sahəsində dünyanın ən iri, mənfəət güdməyən təşkilatı olan Ümumdünya JA Təşkilatının yerli təmsilçisidir. 1919-cu ildə təsis olunan JA təşkilatı dünya üzrə gənclərin iqtisadi və biznes tədrisinə öz töhfəsini verməkdədir. Yerli təmsilçilər vasitəsilə JA proqramları dünyanın 114 ölkəsində tədris olunur. Azərbaycanda 1998-ci ildən fəaliyyətə başlayan Junior Achievement ictimai və fərdi donorların dəstəyilə ölkənin 28 bölgəsində 260 məktəbi təmsil edən minlərlə şagirdə və 300-dən artıq müəllimə təlim keçib..

---